# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 453** **Bakı şəhəri, 28 dekabr 2022-ci il**

**"ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli və "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli fərmanlarının 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511) ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə - "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"na aşağıdakı məzmunda 11-ci və 12-ci sətirlər əlavə edilsin:

| | |
|---|---|
| 11. | Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti |
| 12. | Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti |

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Xalq qəzeti.- 2022.- 30 dekabr.- S.6.